**Bəşirqızı Z.** Kəndin ilk şəhidi: "Əsgər Vətən əmanəti, yurd əmanəti" // Xalq qəzeti. - 2023. - 10 avqust. - **№ 168**. - S. 9.

**Vahid Elşad oğlu Qurbanov 2001-ci il yanvarın 27-də Tovuz rayonun Əyyublu kəndində doğulub. 2007–2016-cı illərdə, 9-cu sinfədək Eyvaz Bayramov adına Əyyublu kənd tam orta məktəbində, 2016–2018-ci illərdə 10-11-ci sinifləri isə Gəncə şəhər, K.D.Uşinski adına 29 saylı tam orta məktəbdə oxuyub. Məktəbin ictimai işlərində fəal iştirak edib, müəllimlərin, məktəb yoldaşlarının sevimlisi olub. Cəldliyi, qabiliyyəti ilə həmişə yoldaşlarından fərqlənib.**
Orta məktəbdə oxuyanda, həmçinin idmana da böyük maraq göstərib. O, daha çox idmanın əlbəyaxa döyüş növləri ilə məşğul olub. Bu, bir şəhid ömrünün müharibəyə qədər olan həyat bioqrafiyasıdır.

...Vahid Qurbanov 2019-cu ilin aprel ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Azərbaycan Silahlı Qüvvələrinin “N” saylı hərbi hissəsində tapşırıqları bacarıqla yerinə yetirən, cəsur əsgər olaraq xidmət edib.

O, həqiqi hərbi xidmətini başa vurmamış Tovuz döyüşləri başlanıb. Vahid böyük narahatlıq keçirib və o döyüşlərdə iştirak edə bilmədiyinə görə təəssüflənib...

Vətən müharibəsi başlayan gündən könüllü olaraq döyüşlərə qatılıb. Onun döyüş yolu Füzulidən başlayıb. Qanlı-qadalı günləri arxada qoyan Vahid Füzuli istiqamətindəki ağır döyüşlərdən sonra digər tapşırıq üzrə başqa istiqamətdə Vətən torpaqlarının azadlığı uğrunda şücaət göstərib. O, Xocavənd, xüsusilə də Qırmızı Bazar istiqamətində gedən döyüşlərdə xüsusi məharəti ilə seçilib. Şəhidlik məqamına da oktyabrın 30-da yoldaşları ilə azad etdiyi Xocavənd uğrunda gedən döyüşlərdə ucalıb. Vahid minlərlə Azərbaycan övladı kimi canını Vətənə qurban verib, Vətən sevgisinin hər şeydən ali olduğunu əməli ilə sübut edib. Yoldaşlarının dediklərinə görə, son nəfəsində “Əsgər, Vətən əmanəti, yurd əmanəti”– mahnısını zümzümə edib. O, canını torpaqlarımızın işğaldan azad edilib vahid bayraq altında birləşməsi, elin şad olması, Qələbə naminə qurban edib!

İki bacının tək qardaşı idi Vahid. Sonuncu dəfə oktyabrın 30-da anası və bacılarıyla danışıb. Ürəyinə nəsə dammış kimi deyib: “Ana, özündən muğayat ol! Hər şey yaxşı olacaq! Məndən narahat olma”. Bacılarına isə anasını tapşırıb: “Anama yaxşı baxın, onu fikirləşməyə qoymayın”. Bu, onun son zəngi olur...

Qara xəbər noyabrın 2-də ailəyə çatıb. Xəbərdə deyilirdi: “Vahid Elşad oğlu Qurbanov 30 oktyabrda Xocavəndin azad edilməsi uğrunda gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid oldu. Başınız sağ olsun!”

Dərin sükutdan və evin tək oğlunun əbədi itkisinin verdiyi ağır kədərdən sonra... “Vətən sağ olsun!” – deyib şəhidin babası! Bir ailə oğul itirdi, bir ölkə qazandı! Bir oğul hələ 19 yaşındaykən ailəsinin, nəslinin başını əbədi uca etdi!

Vətən müharibəsində Əyyublu kəndinin ilk şəhidi Vahid olub! Vahidin nəşi kəndə gətiriləndə bütün kənd camaatı onu qarşılamağa çıxmışdı. Həmin izdiham onun

dəfnində də azalmadı, əksinə, döyüş yoldaşlarının, rayonun məsul şəxslərinin, ictimaiyyət nümayəndələrinin sayı hesabına daha da artdı... O, Əyyublu kənd qəbiristanlığında torpağa tapşırıldı. Vətən torpağını şəhid məzarları daha da əziz edirmiş, daha da doğmalaşdırırmış. Beləcə, qəbiristanlıq ailələri ilə doğmalaşdı...

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Vahid Elşad oğlu Qurbanov “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Cəsur döyüşçü” medalları ilə təltif edilib.